AZƏRBAYCAN RESPUBLİKASI

VERGİLƏR NAZİRLİYİ

BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

BEYNƏLXALQ TƏCRÜBƏLƏR VƏ İNNOVASİYALAR ŞÖBƏSİ

# ✓ Müəssisə anlayışı
# ✓ Trastlar
# ✓ Holdinqlər

2014

## Müəssisə anlayışı

Müəssisə anlayışı “**Belarus Respublikasının** Müəssisələr haqqında qanun” -unda nəzərdə tutulub. “Müəssisələr haqqında qanun”-un ümumi müddəalar bölməsinin 1-ci maddəsinə əsasən, müəssisə özünün işçi qüvvəsi vasitəsilə əmlakından istifadə etməklə məhsul istehsal edən, fəaliyyətini həyata keçirən, xidmətlər göstərən və hüquqi şəxslə eyni hüquqlara malik olan müstəqil təsərrüfat subyektidir. Müəssisə anlayışına digər hüquqi şəxslər daxil deyildir.

Müəssisə anlayışının hüquqi tərifi **Estoniyanın** Öhdəliklər Aktının 2-ci bölməsinin 180-ci Maddəsində göstərilib. Müəssisə, müəssisənin idarə edilməsi ilə bağlı aktivləri, hüquqları, öhdəlikləri olan qurumdur.

**Polşa Respublikasında** Mülki Məcəllənin 55-ci maddəsində müəssisə anlayışı öz əksini tapır. Müəssisə-iqtisadi fəaliyyətin aparılması üçün maddi və qeyri-maddi komponentlərin məcmusudur.

**Gürcüstan Respublikasının** Vergi Məcəlləsinin 3-cü fəslinin 25-ci maddəsində müəssisə anlayışı öz əksini tapır. Müəssisə- Vergi Məcəlləsinin məqsədləri üçün iqtisadi fəaliyyəti həyata keçirən qurumdur.

**Müəssisələrdə Rəhn anlayışı**: "Rəhn" – Borclu şəxsin borc aldığı miqdar əvəzində girov qoyduğu malı ehtiva edir. Təyin edilmiş vaxtda borc qaytarılmasa, borc verən həmin maldan alacağı miqdar əvəzində istifadə edə bilər.

Rəhn müştərək maraqlar çərçivəsində debitorun (borclunun) öz borcunu və ya bir digər öhdəliyini kreditor (borcverən) qarşısında yerinə yetirəcəyini təmin edən qarşılıqlı anlaşmadır. Rəhn anlayışı əsasən Roma hüququnda və ondan törəyən hüquq sistemlərində müşahidə olunur. Mahiyyət etibarı ilə şirkətlərdə rəhn anlayışı ipoteka məhfumuna yaxındır. Amma onları fərqləndirən bəzi cəhətlər mövcuddur.

İpoteka daşınmaz əmlaklar üçün xarakterikdirsə rəhn daşınan əmlaklar üçün tətbiq olunur. İpoteka qoyulan əmlak borcverənin mülkiyyətinə keçirilirsə, rəhn edilmiş əmlak borcalanın mülkiyyətində qalır. Əmlak rəhn edilərkən məhkəmə qərarı olmadan borcverən tərəfindən satıla bilər, ipotekada isə müvafiq məhkəmə qərarının olması şərtdir. Əslində rəhn müəyyən mənada verilən verilən borcun qaytarılmasına zəmanət olan daşınan əmlakdır.

Bəzi ölkələrin qanunlarına görə müəssisələr də rəhn mövzusu ola bilər. Məsələn **Portuqaliyada** Müəssisənin rəhni üzrə müqavilə aşağıdakı məsələləri əhatə edir:

1 – Sahibkar və borcverən müəyyən olunur

2 – Rəhn olunan müəssisə və ya filial qeyd olunur

3 – Borc məbləği qeyd olunur

4 – Ödəmə yeri və vaxtı müəyyən edilir

Müəssisə rəhni həyata keçirildikdən sonra sahibkar girov obyektinin qiymətinin aşağı düşməməsini təmin edəcəkdir. Yəni girovun dəyərinin aşağı düşməsi faktiki olaraq müəssisənin qeyri adekvat idarə olunması ilə bağlı ola bilər. Bu zaman borcverən müəssisənin idarəedilməsinin üçüncü tərəfə keçirilməsini tələb edə bilər. Əgər müəssisə faktiki ünvanını dəyişirsə bu haqda 15 gün əvvəlcədən məlumatı kreditora təqdim etməlidir. Kreditor borcunun nəzərdə tutulmuş şərtlər çərçivəsində ödənmədiyi təqdirdə rəhnni satmağı tələb edə bilər. Həmin satış müəssisə parçalanmadan həyata keçirilir. Əgər müəssisə bütöv olaraq satıla bilmirsə onda hissələrlə satış təşkil olunur.

**Bolqarıstanda** Qeydiyyatda olan rəhnlər haqqında qanun mövcuddur. Qanuna görə rəhn müqaviləsi yazılı qaydada həyata keçirilir. Həmin qanun mülkiyyəti borcverənə keçməyən girov münasibətlərini tənzimləyir. Bu qanun çərçivəsində

rəhnlərin reyestri məsələləri də tənzimlənir. Qanuna görə aşağıdakı əmlaklar rəhn oluna bilərlər:

1) Alacaq hesablar, təmin olunmamış qiymətli kağızlar, gəmi və təyyarələr
2) Tam və məhdud ortaqlıqlarda səhmlər, MMC-lər
3) Ticarət müəssisələri

Ticarət müəssisələrinin rəhni yazılı müqavilə şəklində həyata keçirilir. Bu zaman bütün imzalar notarial qaydada təsdiq olunur. Həmin müqavilə çərçivəsində olan bütün müddəalar reyestrdə öz əksini tapmalıdır. Müvafiq reyestr Ədliyyə Nazirliyi tərəfindən aparılır. Həmin reyestr məlumatları ictimaiyyətə açıqdır. Reyestr məlumatlarına aşağıdakılar daxil edilir:

1) Müəssisənin adı, qeydiyyat ünvanı.
2) Ödəniləcək məbləğ müqabilində rəhn olunan əşyanın təsviri
3) Rəhnin müddəti
4) Rəhnin şərtləri

Kommersiya rəhni haqqında qanun **Estoniyada** da mövcuddur. Həmin qanun daşınan əmlakların mülkiyyət hüququnu ötürmədən girov qoyulmasını şərh edir. Əmlakın rəhni notarial təsdiq olunmuş müqavilə əsasında ötürülür və dövlət reyestrinə daxil edilir. Reyestrdə aşağıdakı məlumatlar əks olunur:

1) Şirkətin adı, rezidentliyi, ünvanı, qeydiyyat nömrəsi
2) Rəhn tarixi
3) Kommersiya rəhninin monetar həcmi
4) Rəhn müqaviləsi və həmin müqaviləyə edilən düzəlişlər və əlavələr

Kommersiya rəyni aşağıdakılara şamil olunmur:

1) Şirkətin kassasında və ya bank hesabında olan vəsaitə
2) Tələb olunduqda realize edilə bilməyən əmlaklar

# Trastlar

**Macarıstan** Mülki Məcəlləsinin 4-cü fəslinin 34-cü bölməsi ölkədə trastların mövcud olduğunu göstərir. Həmin qanunvericiliyə görə trastlar bir mərkəzdən bir neçə şirkətin səmərəli idarə edilməsini təmin edilməsi məqsədi ilə yaradılır. Trastlar hüquqi şəxslər hesab edilir. Mülki məcəllənin müvafiq maddəsinə əsasən trastlarla bağlı xüsusi qaydalar ayrıca qanunla tənzimlənə bilər.

**Çin** qanunvericiliyinə əsasən trastlar mövcuddur. Çində trastlar müxtəlif məqsədlər üçün yaradılır. Bu ölkədə trastlar ölçülərinə görə 3 qrupa bölünürlər:
Dövlət trastları - belə trastlar milli hökumət müəssisələri və konqlomeratlar tərəfindən idarə olunur. Dövlər trastları öz ölçülərinə və apardıqları əməliyyatlara görə digərlərinən daha iri şirkətlər olurlar.
Şəhər hökumətləri tərəfindən idarə olunan trastlar- belə trastlar daha varlı ərazilərdə yerləşir və əsasən dar çərçivədə fəaliyyət göstərirlər.
Ölçüsünə görə üçüncü növ trastlar özəl, hökümət və kiçik ölçülü dövlət müəssisələrindən ibarət olur. Belə trastlar daha çevik olmaqları ilə digərlərindən fərqlənirlər.

**Çexiyada** yeni dəyişikliklər edilmiş Mülki Məcəllənin 4-cü bölməsinin 1-ci yarımbölməsi Trast fondları və onların formalarına həsr edilib. Trastlar mövcud mülkiyyət əsasında təsisçi tərəfindən yaradılıb, trast rəhbəri hər şeyə məsuliyyət daşıyan formadır. Trast fondları dövlət və özəl ola bilərlər. Özəl trast fondları şəxsin gəlir götürməsi məqsədi ilə yaradılır. Bu fondlar investisiyanın və gəlirlərin təsisçilər, səhmdarlar, işçilər arasında bölünməsi məqsədi ilə yaradıla bilər. Dövlət trastlarının məqsədi gəlir götürmək deyil, sadəcə əməliyyatların həyata keçirilməsini təmin etməkdir. Trastların hamısının etiketləri olmalıdır.

**ABŞ** trastlar haqqında qanun trastların yaradılmasında əsas qanun hesab edilir. 2004-cü ilin avqust ayında ABŞ-ın 50 ştatında tətbiq edilən Vahid Trast Məcəlləsi qəbul edilib. 2012-ci ilin iyul ayından 25 ştat Vahid Trast Məcəlləsinə bəzi dəyişikliklər edərək, onu yenidən qəbul etmişlər. Trastlar üçün nəzərdə tutulan vahid qanunun məqsədi ştatlarda tətbiq edilən ayrı-ayrı trast qanunlarının vahid bazada həllinə nail olmaqdır. ABŞ trastların yaradılmasında əsas "üç şəxs" iştirak edir: trastın təsisçisi, trastda administrativ funksiyanı həyata keçirən, mülkiyyətin idarə edilməsindən gəlir əldə edən şəxs. ABŞ-da trastlar müqavilə əsasında yaradılır.

## Holdinqlər

**Niderlandda** holdinqlər üçün iki təşkilati-hüquqi formalar tətbiq olunur:

- Açıq Məhdud Məsuliyyətli Şirkət (Naamloze Venootschap - NV) ;
- Özəl Məhdud Məsuliyyətli Şirkət (Besloten Venootschap met beperkte aansprakeijkheid - BV).

Niderland şirkətlərinin fəaliyyəti Mülki Məcəllə ilə tənzimlənir. Açıq Məhdud Məsuliyyətli Şirkətlər üçün minimum ödənilmiş kapital - *45000 Avro*, Özəl Məhdud Məsuliyyətli Şirkət üçün minimum ödənilmiş kapital isə - *18000 Avro* təşkil edir. Yeganə səhmdarla da şirkət qeydiyyatdan keçə bilər. Qeydiyyata alınmış səhmlərdən əlavə, Açıq Məhdud Məsuliyyətli Şirkətdə adsız səhmlərin buraxılışına da icazə verilir. Özəl Məhdud Məsuliyyətli Şirkətlərdə isə yalnız qeydiyyata alınmış səhmlərin buraxılışına icazə verilir.

Nəzərdən keçirilən hər iki şirkət üçün direktorların minimum sayı 1-dir. Niderland ərazisində qeydiyyatdan keçən şirkət rezident sayılır. Ölkə qanunvericiliyi

tərəfindən nəzərdə tutulan güzəştli vergi rejiminin tətbiqi üçün idarə heyətinin yarısından çoxu Niderland rezidenti olmalıdır. Bundan əlavə bütün qərarlar ölkə ərazisində qəbul edilməli və mühasibat uçotu da burada aparılmalıdır.

Şirkətin qeydiyyatı notariusun iştirakı ilə həyata keçirilir. İlk öncə şirkətin adı yoxlanılır, təsis sənədləri layihəsi hazırlanır. Daha sonra Ədliyyə Nazirliyi qeydiyyata dair notariat aktı təsdiq edir. Bu mərhələdə, Ədliyyə Nazirliyinə benefisiar sahiblər haqqında məlumatlar təqdim edilir. Növbəti mərhələdə bankdan nizamnamə kapitalının ödənilməsi və qeydiyyata dair notariat aktın icrasını təsdiq edən ərizə əldə edilir. Bu mərhələdən sonra şirkət haqqında məlumatlar Ticarət-Sənaye Palatasının Ticarət Reyestrinə daxil edilir. Şirkət notariat aktın icra edildiyi vaxtdan etibarən fəaliyyətə başlamış hesab edilir.

Şirkətin direktorları haqqında məlumat açıq ticarət reyestrində saxlanılır. Səhmdarlar haqqında məlumat, buraxılmış səhmdar kapitala bir fiziki və ya hüquqi şəxsin sahib olduğu təqdirdə ticarət reyestrinə verilir. Benefisiar sahib haqqında məlumat Ədliyyə Nazirliyinə verilir, eləcə də hesab açılarkən bütün banklar tərəfindən mütləq qaydada sorğu edilir.

Bir sıra şərtlərə əməl etməklə şirkətin gəliri (*dividend, kapitalın artımından gəlir və mənfəətdə pay iştirakından gəlirin bəzi növləri*) vergidən azad oluna bilər. Belə ki, Niderlandda bu məqsədlə *"azad edilmə qaydaları"* qəbul edilmişdir. Bu qaydalar, aşağıdakı şərtlərə əməl edilməklə, digər rezident və ya xarici şirkətin buraxılmış kapitalının ən azı 5 %-na sahib olan rezident şirkətlərə şamil edilir:

- xarici törəmə müəssisənin mənfəəti onun rezident olduğu ölkənin mənfəət vergisinə cəlb edilməlidir;
- xarici törəmə müəssisədə iştirak passiv olmamalıdır, ana müəssisə törəmə müəssisənin idarə edilməsində fəal iştirak etməlidir.

**Lüksemburqda** iki növ holdinq şirkəti mövcuddur:

- Səhmdar Cəmiyyət (***Societe anonyme və ya SA***);
- Məhdud Məsuliyyətli Cəmiyyət (***Societe a responsabilite limitee və ya Sarl***).

Bu şirkətlərin fəaliyyəti "*Kommersiya şirkətləri haqqında*" 1915-ci il qanunu ilə tənzimlənir. Holdinq şirkətlərin əksəriyyəti səhmdar cəmiyyəti şəklində qeydiyyatdan keçir.

Səhmdar Cəmiyyət üçün ödənilmiş kapitalın minimum həcmi – 31000 Avro, Məhdud Məsuliyyətli Cəmiyyət üçün isə - 12500 Avro-dur.

Səhmdarların minimum sayı 1şəxsdir. Səhmdar Cəmiyyət həm qeydiyyata alınmış, həm də adsız səhmlərin buraxılışına icazə verir. Məhdud Məsuliyyətli Cəmiyyətdə isə səhm yox, pay mövcuddur.

Şirkətin qeydiyyat prosedurunun ilk mərhələdə şirkətin adı yoxlanılır, təsis sənədlərinin hazırlanması və nizamnamə kapitalının ödənilməsi üçün bank hesabının açılması həyata keçirilir. Şirkət notariusun iştirakı ilə səhmdar və ya onun agenti tərəfindən təsis edilir. Şirkətin nizamnaməsi qeydiyyata alınır və şirkətin reyestrinə verilməklə yanaşı Lüksemburqun rəsmi qəzetində nəşr edilir. Notariusun iştirakı ilə Nizamnamə imzalandıqdan sonra, Lüksemburqun vergi orqanlarında qabaqcadan qeydiyyatdan keçdikdən sonra şirkət Ticarət reyestrində qeydiyyatdan keçmək üçün müraciət edir.

Direktorlar və səhmdarlar haqqında məlumat açıq ticarət reyestrinə verilir. Benefisiarlar haqqında məlumat qeydiyyatdan keçmiş agentdə saxlanılır, eləcə də hesab açılarkən banka verilir.

Lüksemburqda holdinqlərin bir neçə vergi statusu var:

- 1929-cu il holdinqi;
- soparfi;
- spf.

1929-cu il Holdinqi eyni ildə qəbul edilmiş qanuna əsasən adlandırılmışdır. Belə şirkətlər statuslarına görə ofşor anlayışına yaxındır. Bu şirkətlər 31 dekabr 2010-cu il tarixindən etibarən öz fəaliyyətlərini dayandırıblar.

Soparfi-maliyyə holdinq şirkətidir. Onun fəaliyyəti 24 dekabr 1990-cı il qanunu ili tənzimlənir. Soparfi digər şirkətlərin səhmlərinə sahib olmaqla yanaşı *(100 % səhmlərə də həmçinin)*, kommersiya və sənaye fəaliyyəti ilə də məşğul ola bilər. Bundan əlavə, soparfi Avropa Birliyinin direktivlərindən, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasına dair sazişlərindən yararlana bilər.

SPF Holdinq 1929-un əvəzinə yaradılmışdır. Lakin SPF-də yalnız fiziki şəxslər və onların nümayəndələri səhmdar və ya iştirakçı ola bilər. SPF kommersiya fəaliyyəti həyata keçirə bilməz, həmçinin AB direktivlərini və ikiqat vergitutmanın aradan qaldırılmasına dair sazişləri tətbiq edə bilməz.

**Kiprdə** holdinqlərin yaradılması üçün istifadə edilən təşkilati-hüquqi forma-Səhmlərə görə Məhdud Məsuliyyətli Özəl Şirkətdir. Onun fəaliyyəti şirkətlər haqqında qanunla *(Fəsil 113)* tənzimlənir. Şirkətlər haqqında qanunda ödənilmiş və ya elan edilmiş nizamnamə kapitalının minimum miqdarı haqqında heç nə deyilməsə də, mövcud təcrübəyə əsasən şirkətlər 2000 Avro *(1 yanvar 2008-ci ildən etibarən)* məbləğində nizamnamə kapitalı ilə qeydiyyatdan keçirlər. Şirkətin səhmdarların sayı 1 nəfərdən 50 nəfərə qədər təşkil edir.

Qeydiyyata alınmış səhmlər və xüsusi güzəştli səhmlərin buraxılışı mümkündür. Adsız səhmlərin buraxılışı qanun tərəfindən nəzərdə tutulmayıb. Qanunvericilik

direktorların rezidentliyinə görə məhdudiyyət qoymur. Direktor həm fiziki şəxs, həm də hüquqi şəxs ola bilər. Bundan əlavə, direktorların rezidentliyi, direktorların iclaslarının keçirildiyi və qərarların qəbul edildiyi yer ümumilikdə şirkətin rezidentliyi haqqında qərarın qəbul olunmasına təsir göstərmək iqtidarındadır. Bu da öz növbəsində gələcəkdə həmin şirkətin güzəştli statusun istifadəsi imkanına, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasına dair sazişlərin tətbiqi imkanına təsir göstərə bilər. Kiprdə şirkət yeganə direktorla qeydiyyatdan keçə bilər. Rezident olmaq imkanı əldə etmək üçün şirkətin həmin yeganə direktoru rezident olmalıdır. Bir neçə direktor olduğu təqdirdə, direktorlar şurasının əksəriyyəti rezident olmalıdır.

Şirkətin qeydiyyatına gəldikdə isə, ilk növbədə ad şirkəti qeydiyyata alan tərəfindən təsdiq edilir. Daha sonra Dövlət reyestrinə veriləcək təsis sənədləri hazırlanır (Nizamnamə, Təsis Sazişi). Sonda, reyestrdən şirkətin qeydiyyatdan keçməsi haqqında şəhadətnamə verilir.

Şirkətin direktorları və səhmdarları haqqında məlumat məxfi sayılmır. Məlumat İctimai Dövlət Reystrində saxlanılır. Hər bir şəxs sorğu əsasında həmin məlumatları əldə edə bilər. Benefisiar sahiblər haqqında məlumat yalnız qeydiyyatdan keçmiş agentdə saxlanılır. Vergi qanunvericiliyinə əsasən yalnız rezident şirkətlər vergiyə cəlb edilir.

**Latviyada** Sərmayəçinin seçiminə əsasən holdinqin hüquqi forması - Məhdud Məsuliyyətli Cəmiyyət və ya Səhmdar Cəmiyyət ola bilər. Latviyada holdinq üçün nizamnamə kapitalının minimum məbləği – 2850 Avrodur.

Latviyada holdinqin təsisçiləri və iştirakçıları həm fiziki, həm hüquqi şəxs, eləcə də rezident və qeyri rezidentlər ola bilər. Onların sayı məhdud deyil.

Latviyada holdinqin direktoru rezident və ya qeyri rezident olan yalnız fiziki şəxs ola bilər. Onların sayı da məhdud deyil.

Latviyada holdinqin qeydiyyatdan keçirilməsi üçün aşağıdakı məlumatlar təqdim edilməlidir:

- adı;
- təsisçi haqqında məlumat (pasportun surəti, təsisçi xarici hüquqi şəxs olduqda notarial qaydada təsdiq edilmiş, leqallaşdırılmış və latış dilinə tərcümə edilmiş təsis sənədlərinin surətləri);
- bir neçə təsisçinin olduğu təqdirdə payın bölüşdürülməsi;
- direktor haqqında məlumatlar (yaşayış yerinin göstərilməsi ilə pasportun surəti);
- hüquqi ünvan.

Eləcə də, hazırlanmış təsis sənədləri imzalanmalı və şirkətin nizamnamə kapitalı ödənilməlidir.

Latviyada holdinq şirkətləri üçün iştirak payına görə, sahiblik müddətinə və törəmə müəssisənin fəaliyyətinə görə heç bir məhdudiyyət yoxdur.

2013-cü ildən etibarən kapital payının və səhmlərin satışından gəlir, eləcə alınmış dividendlər vergiyə cəlb edilmir.

2013-cü ildən etibarən xarici şirkətlərə dividendlərin ödənilməsi ödəmə mənbəyində vergi cəlb edilmir.

2014-cü ildən etibarən xarici şirkətlərə faiz və royaltilərin ödənilməsi ödəmə mənbəyində vergi cəlb edilmir.

## Nəticə

Aparılan araşdırmalar nəticəsində məlum oldu ki, ***müəssisə anlayışı*** bir çox ölkələrdə qanunvericilikdə öz əksini tapmışdır. Əgər Belarus Respublikasında bu "Müəssisələr haqqında qanun" da qeyd olunmuşdursa, Polşada "Mülki Məcəllədə", Gürcüstanda "Vergi məcəlləsi", Estoniyada isə "Öhdəliklər Aktında" öz əksini tapmışdır.

Beynəlxalq hüquq sistemində müəssisələrin rəhni anlayışına rast gəlinir. Rəhn mahiyyət etibarı ilə, ipotekaya bənzəyən məhvumdur. Amma ipoteka əsasən daşınmaz əmlakla bağlı olub, mülkiyyət hüququ kreditora ötürülən əqddir. Rəhn isə daşınan əmlakın girovu təqdim edilərək, mülkiyyət hüququ debitorda saxlanılan sazişdir.

***Trast*** anlayışları da dünya ölkələrinin qanunverici sənədlərində müşahidə olunur. Məsələn Macarıstan və Çex Respublikalarında trast anlayışı Mülki Məcəllə ilə tənzimlənir. Trastlar müxtəlif məqsədli və müxtəlif funksiyalı ola bilər. Məsələn Macarıstanda trastlar bir neçə şirkətin səmərəli idarə edilməsini təmin etmək üçün qurulursa, Çexiyada isə məqsədi gəlir götürmək olmayan dövlət trastlarına rast gəlinir.

***Holdinq*** - üzərində nəzarəti həyata keçirmək üçün hüquqi, müstəqil şirkətlərin səhm nəzarət paketinə sahib olan səhmdar cəmiyyətdir. Holdinqə daxil olan şirkətlər öz adından kommersiya əməliyyatı həyata keçirirlər. Lakin fəaliyyətə aid əsas məsələlərin həlli hüququ holdinq şirkətə məxsusdur. Holdinqlər ölkələrdə müxtəlif təşkilati hüquqi formada yaradıla bilər. Niderlandda holdinqlər Açıq Məhdud Məsuliyyətli Şirkət və Özəl Məhdud Məsuliyyətli Şirkət kimi yaradıla bilər. Həmin təşkilati formalar mülki məcəllə ilə tənzimlənir. Lüksemburqda iki növ holdinq şirkət mövcuddur. 1) Səhmdar Cəmiyyət 2) Məhdud Məsuliyyətli Cəmiyyət. Bu şirkətlərin fəaliyyəti Kommersiya şirkətləri haqqında qanun ilə

tənzimlənir. Kiprdə holdinqlərin yaradılması üçün istifadə edilən təşkilati-hüquqi forma, Səhmlərə görə Məhdud Məsuliyyətli Özəl Şirkətdir. Onun fəaliyyəti şirkətlər haqqında qanunla (Fəsil 113) tənzimlənir. Sərmayəçinin seçiminə əsasən holdinqin hüquqi forması - Məhdud Məsuliyyətli Cəmiyyət və ya Səhmdar Cəmiyyət ola bilər.